# Əlahəzrət SÖZ!..

**Mübarək qüdrətli sözlər könüllərdə yaranır, müqəddəs ocaqdan pərvazlanır, əql-düşüncə süzgəcindən keçir, nizamlanır, düzənlənir, möhkəmlənir. Şəxsiyyətin əxlaqı onu əqidə və mərifətinə uyğun nizam-tərəzidə ölçür, yönləndirir.**

İnsan Günəş tək nur, şəfəq saçanda, Ay kimi bədirlənəndə, düşüncəyə, səsə bələnəndə də sözə sığınır. Sevinəndə, qəhər onu boğanda, qəlbi kükrəyəndə də, bir xoş sözə möhtac duyur bəşər övladı.

Hər bir sözün özünə məxsus rəngi var. Həm də hər sözün öz aləmi, ləngəri, tutumu, çalarları, ritmi,hədəfi və ümid verən nuru var. Sözün butası, qayaqlı, naxışlı duruşu, gəlişi-gedişi, kükrəyişi, uzun ömrü var.

Müdrikcəsinə deyilən söz ildırım kimi çaxan xınalı köhlənlərtək möhtəşəmdir. Dünya durduqca əqlin, düşüncənin sərhədlərinə doğru təzadlar məngənəsində dörd nala çapır söz.

Söz, yayından çıxmış ox kimidir. Geriyə qaytarmaq mümkünsüzdür. Məqamında, yatımında deyilmiş söz, bərədə dayanmış ovçunun uğuru kimi əzizdir, şirindir.

**Söz var insanı ruhlandırar, dağlara, uca zirvələrə qaldırar, çiçəkli çəmənlərə aparar, insana xoş həyat bəxş edər, onu yaşadar, həyatına yeni çalarlar verər, insanı cəngavər və qəhrəman edər...**

**Dağdan ağır sözləri şan-balnan da yemək olmur...**

**Söz də var insanı qatil edər, insanı uçurumun sahillərinə çəkər, onu məhv edər.**

**Məkrli söz insanı haqq yolundan sapındırar, onun həyatını bitirər.**

***

**Xoş sözün əsil qiyməti ölçüyə gəlməz...**

**Əsl insana xas olan mehr-məhəbbətli, işıqlı həyat yolunu göstərən, əqidə və düşüncəyə nur verən müdrik sözlər dühalığı şərtləndirir.**

Belə deyərlər ki, diş dilin qapısı, sirr saxlayan hasarıdırsa, söz səsin övladı, ürəklərin açarıdır.

**Elə sözlər olur ki, dərin, sirli-soraqlıdır. Sirr saxlamaq qabiliyyəti müdrikliyə, ağsaqqallığa, şəxsiyyətin bütövlüyünə dəlalət edir.**

## (Esse)

**Elə olur ki, deyilən sözü sirli saxlamaq kiminsə həyatını yaşadır, taleyini qoruyur, şəxsiyyətini müəyyənləşdirir. Sirr saxlamaq qabiliyyətinin insan mənəviyyatında öz yeri var. Bəzən təcrübədən irəli gəlir, ya da ki, insanın həyatı boyu əxz etdiyi böyük məna və məntiqin, qeyrət və kişiliyin xüsusiyyətlərindəndir—fenomendir.**

Sirli söz bir dünya, məkanı dərin, özü sirli-soraqlı bir aləmdir. Sirli sözün öz fəlsəfəsi, məna tutumu vardır. Sirli nə varsa, məkanı əlçatmaz ənginliklərdə, yerin təkindədir. İnsanın fəlsəfi düşüncəsi, sirli sözün dəyanətini qorumaqla yanaşı həyatın axarına uyğun nizamlana bilir. Sirli sözün izharı hədəqədən çıxanda fəlakətlər törənər, ellər qan çanağına dönər. Yel kimi ötüb-gedən, nəştər olub dəlib keçən, yarpaq üstə yazılan kəlamların, dürlü-dürlü sözlərin qınağı, söz yarası yüz illər gedər. Ona görə də, sözü qoyma əyərli ola, qədrini bilənə və qədərində desən, uğurlu olar.

**Xoş duyğular, qəzəb, nifrət və insanın ali hissləri sözün qüdrəti ilə** ifadə olunur. Sözün sehrindən qurtulmaq çətin olsa da, ondan doymaq da olmur. Söz də sevimli və əziz insanlar kimidir. Sözün böyük qüdrəti, qılıncdan iti kəsəri olduğu kimi, könül oxşayan nəğmələrdə qanadlanan sözlərin həm də incə, məlhəm, zərif gül tək lətafəti vardır!

Söz insanı idarə etməyə qadir sərkərdədir.

Xoş niyyətlə deyilmiş dürlü-dürlü söz insanları xeyirxahlığa, humanizmə, Vətən, ata-ana sevgisinə, haqq-ədalətə tapınmağa səsləyir...

Söz, səndə düşüncə qüdrəti və süräti var ki, dünya-aləm hələ də, ölçüsünü tapa bilməyib...

Xoş söz həmişə bağlı qapıların açarıdır.

Axı, insan ömrü nə qədərdir ki?! Odur ki, Tanrının hər kəsə bəxş etdiyi bu ömrü şərəflə, ləyaqətlə, insana xas olan gözəl məramla yaşamaq üçün xeyirli fikrə, xeyirli sözə, xeyirli arzulara, xoş əməllərə aparan münasibətlərə, qarşılıqlı anlaşmalara rəvac verin. Öz həyatınızı çalışın xoş və mənalı keçirin, nurlu bir ömür qismətiniz olsun!..

Düşündüyünü sözə bələyib kağıza köçürən qələm sahibinin sözünə qüvvət: Ey böyük qüdrət sahibi, olduqca təzadlı, möhtərəm əlahəzrət SÖZ! Axı, sən kiminsən, nəsən, nəçisən, kimlərə məxsussan?!.

Dürlü-dürlü sözlər özünün yenilməz qüdrəti və Şahpalıd əzəməti ilə əbədi yaşardır!..

**Əlahəzrət söz həm də həyat həqiqətlərini yaşadır və nəsillərə ərmağan edir!..**